AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 33 (1433), 27 avqust - 2 sentyabr 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Cüdoçularımızın Yaponiya sınağı

Avqustun 25-də Yaponiyanın paytaxtı Tokioda cüdo üzrə dünya çempionatına start verilib. Yarışda 149 ölkədən 866 (524 kişi, 342 qadın ) cüdoçu mübarizə aparır. Rekord sayda idmançının iştirak etdiyi çempionatda ölkəmizi 15 cüdoçu təmsil edir.

Yarışların birinci günündə kişilər arasında 60 kiloqram çəkidə mübarizə aparan təmsilçimiz Davud Məmmədsoy ilk qarşılaşmada Tornik Çjakodeaya (Hollandiya) qalib gəlsə də, sonrakı mərhələdə Khyar Valideyə (Fransa) uduzub. Qadınlar arasında 48 kiloqram çəki dərəcəsində Aişə Qurbanlı ilk görüşündə ukraynalı idmançı Marina Çernyakı mübarizədən kənarlaşdırıb. Cüdoçumuz ikinci qarşılaşmada serbiyalı Milica Nikolicə məğlub olub. Həmin çəkidə digər qadın cüdoçumuz Leyla Əliyeva isə ilk mərhələdə portuqaliyalı Katerina Kosta ilə qarşılaşma zamanı 3 xəbərdarlıqla tatamini məğlub tərk edib.

Çempionatının ikinci günündə üç cüdoçumuz tatami üzərinə çıxıb. Təmsilçilərimizdən Nicat Şıxəlizadə (66 kq) vyetnamlı Quoc Xuan, qazaxıstanlı Yerlan Serikcanov və daha sonra qırğızıstanlı Almaz Altınbek Uulunu məğlub etsə də, səkkizdəbir finalda misirli Məhəmməd Abdelmaugoudun öhdəsindən gələ bilməyib.

Digər təmsilçilərimizin də çıxışları uğurlu olmayıb. Belə ki, Gültac Məmmədəliyeva (52 kq) mozambikli Jaciro Ferreyra, Larisa Florian (52 kq) isə Honq-Konq cüdoçusu Şuk Ki Çui ilə qarşılaşmalarda qalib gəlsələr də, onaltıdabir finalda məğlub olublar.

Qeyd edək ki, proqrama əsasən, avqustun 31-dək keçiriləcək fərdi yarışlardan sonra, sentyabrın 1-də qarışıq komanda yarışları təşkil olunacaq.

## Azərbaycan 2022-ci ildə dünya çempionatına ev sahibliyi edəcək

Azərbaycan gimnastika üzrə daha bir mötəbər tədbirə ev sahibliyi edəcək. 2022-ci ildə akrobatika gimnastikası üzrə dünya çempionatı ölkəmizdə keçiriləcək. Bu barədə qərar Beynəlxalq Gimnastika Federasiyanın (FİG) İcraiyyə Komitəsinin Nikaraquanın Manaqua şəhərində keçirilən iclasında qəbul edilib.

Akrobatika üzrə dünya çempionatından (martın 11-13) əvvəl isə Dünya Yaş Qrupu yarışları (martın 2-7) da Bakıda keçiriləcək. Ardıcıl olaraq bir neçə ildir mötəbər beynəlxalq yarışları yüksək səviyyədə təşkil edən AGF-ni qarşıda digər mühüm çempionatlar da gözləyir. Belə ki, bu ilin əsas yarışı - sentyabrın 16-22-də Milli Gimnastika Arenasında keçiriləcək bədii gimnastika üzrə dünya çempionatının başlamasına artıq bir aydan da az vaxt qalıb. Növbəti il isə aerobika ulduzları dünya çempionatında yarışmaq üçün paytaxtımızda toplaşacaqlar. 2021-ci ildə isə Bakı batut gimnastikası üzrə dünya birinciliyinə ev sahibliyi edəcək.



## Olimpizm

### “Şahmatın Avropa Oyunlarının proqramına daxil edilməsi üçün perspektiv var”

Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Arkadi Dvorkoviç şahmatın Avropa Oyunlarının proqramına daxil edilməsi perspektivləri ilə bağlı fikirlərini bölüşüb.



O, müsahibəsində şahmatın gələcəkdə Avropa Oyunlarının proqramına salınması üçün perspektivlərin olduğunu bildirib: “İndiyədək şahmatın Avropa Oyunlarının proqramına daxil edilməsi haqqında razılığa gələ bilməmişik. Amma bunun üçün perspektiv var. Şahmat Afrika və Asiya oyunlarının proqramında olub və daha sonra çıxarılıb. Fasilədən sonra şahmat ilk dəfə rəsmi olaraq Mərakeşdə təşkil olunan Afrika Oyunlarının proqramına salınıb. Şahmat, həmçinin 2020-ci ildə keçiriləcək Asiya Oyunlarının proqramında da yer alıb”.

Avropa Oyunları 2015-ci ildən etibarən hər dörd ildən bir keçirilir. Bu nüfuzlu turnir Avropa Olimpiya Komitələrinin nəzarəti altında Avropa qitəsinin idmançıları arasında keçirilən regional beynəlxalq idman yarışdır. İlk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda, ikincisi 2019-cu il iyunun 21-30-da Minskdə keçirilib. Növbəti oyunlar isə 2023-cü ildə Polşanın Krakov şəhərində təşkil ediləcək.

### Hindistanın antidopinq laboratoriyası cəzalandırılıb

Dünya Antidopinq Agentliyi (WADA) Hindistanın antidopinq laboratoriyasını altı aylıq kənarlaşdırıb. Bu barədə məlumatı agentliyin mətbuat xidməti yayıb.

Müvafiq qərar WADA nümayəndə heyətinin bu ölkəyə səfərindən sonra qəbul edilib. Hindistanın antidopinq laboratoriyasını Laboratoriyalar üzrə Beynəlxalq Standartlara (ISL) cavab vermədiyi üçün cəzalandırıblar. Bu ölkədə laboratoriyanın yoxlanılmasına mayda başlanılıb və müvafiq sanksiya avqustun 20-dən qüvvəyə minib. Laboratoriyaya bu sahədə hər hansı fəaliyyətlərin həyata keçirilməsi , o cümlədən analizlərin toplanması qadağan edilib.

WORLD ANTI-DOPING AGENCY

Qeyd olunur ki, Hindistan tərəfi WADA-nın qərarından 21 gün müddətində İdman Arbitraj Məhkəməsinə apellyasiya şikayəti verə bilər. Əgər Hindistanın antidopinq laboratoriyası altı ay müddətində göstərilən nöqsanları aradan qaldırmazsa, o zaman onu daha yarım il ərzində kənarlaşdıra bilərlər.

### *Qrup komandamızın Balkan sınağı 3 medalla yekunlaşıb*

Rumıniyanın Kluj şəhərində bədii gimnastika üzrə “Challenge” seriyasına aid Dünya kuboku yarışlarına yekun vurulub. Azərbaycanı bu yarışlarda təmsil edən Aliyə Paşayeva, Darya Sorokina, Ayşən Bayramova, Zeynəb Hümmətova və Diana Əhmədbəylidən ibarət qrup hərəkətləri üzrə milli komandamız gümüş medala layiq görülüb. Gimnastlarımız kubok yarışları tarixində ilk dəfə çoxnövçülük proqramında fərqləniblər.Onlar hakimlərdən 49,950 xal alaraq ikinci yerdə qərarlaşıblar.

Yarışların son günü isə ayrı-ayrı alətlər üzrə final mərhələləri keçirilib. Qızlarımız Dünya kubokunun ikinci gümüş medalını (26,100) 5 topla çıxışlarına görə alıblar. Qrup komandamızın gürzlər və halqa ilə icra etdiyi kompozisiyalar isə onlara bürünc medal (24,650) qazandırıb.

Fərdi proqramda çıxış edən gimnastlarımızdan isə ən yaxşı nəticə Zöhrə Ağamirovaya məxsusdur. Gənc idmançımız topla final çıxışına görə 19,800 xalla 7-ci yeri tutub.



### *“Azərbaycanın Olimpiya Oyunlarına ev sahibliyi edəcəyi gün uzaqda deyil”*

Səh. 2

## Anons

*İJF-in Nizamnaməsində bəzi dəyişikliklər edilib* Səh. 3

“Dünya məktəbi”ndə keçirilən şahmat turnirinin qalibləri müəyyənləşib Səh. 2

Qadın voleybolçularımız Avropa çempionatında mübarizə aparırlar Səh. 3

*“Olimpiya festivallarının yeniyetmə idmançılar üçün əhəmiyyəti çox böyükdür”* Səh. 4

*Taekvondoçular xatirə turnirində bir araya gələcəklər* Səh. 4

Yan xətt hakimləri robotlarla əvəz olunacaq Səh. 7

*Azərbaycan Premyer Liqası: “Səbail”dən maksimum nəticə* Səh. 7

**UEFA Avropa Liqası** (pley-off mərhələsi)

### “Qarabağ” - “Linfild”

(Azərbaycan) (Şimali İrlandiya)

*29 avqust. “Tofiq Bəhramov” adına Respublika Stadionu. Saat 20:00.*

Müsahibə

# "Azərbaycanın Olimpiya Oyunlarına ev sahibliyi edəcəyi gün uzaqda deyil"



***Son illərdə bir sıra mötəbər idman yarışlarına ən yüksək səviyyədə ev sahibliyi edən Bakı, dünyanın idman ictimaiyyətinin diqqətini ötən ay yenidən özünə cəlb etdi. Belə ki, paytaxtımızda 14-18 yaş arası gənc idmançılar arasında 10 idman növü üzrə (idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş) təşkil olunan XV Avropa Gənclər Olimpiya Festivalı öz möhtəşəmliyi ilə yadda qaldı. 48 ölkədən 3900 idmançının işirakı ilə keçirilən festivalda gələcəyin idman ulduzları beynəlxalq arenada ilk addımlarını burada atdılar və bəlkə də ilk ən böyük nailiyyətlərini Bakıda qazandılar. Əldə olunan bu qələbələr Olimpiya ruhunu hiss etməyə, onları yeni qələbələr qazanmağa ruhlandıracaq. İştirakçıların burada qazandıqları dostluq və təcrübə isə onlarla uzun müddət yol yoldaşı olacaq.***

*Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibi, professor Ağacan Abiyev XV Avropa Gənclər Olimpiya Festivalının ölkəmizdə təşkili ilə bağlı "Olimpiya dünyası" qəzeti ilə fikirlərini bölüşüb.*

***- Ağacan müəllim, XV Avropa Gənclər Olimpiya Festivalının ölkəmiz üçün əhəmiyyəti barədə fikirlərinizi bilmək istərdik.***

- Son illərdə Azərbaycan ardıcıl bir sıra mötəbər idman yarışlarına ən yüksək səviyyədə ev sahibliyi edib. Keçirilən hər bir yarış ölkəmizin tanınması, nüfuzunun artması, eləcə də təcrübə baxımından böyük əhəmiyyətə malikdir. Yarışların əhəmiyyəti ondan ibarətdir ki, paytaxtımıza səfər edən qonaqlar Azərbaycanda idman sahəsində əldə olunan inkişafı, yüksək təşkilatçılığı, idmana olan münasibəti, idmançılarımızın hazırlığını görürlər. Bütün bunlar göstərir ki, Beynəlxalq və Avropa Olimpiya Komitələri, eləcə də beynəlxalq federasiyalar tərəfindən Azərbaycana idman ölkəsi kimi böyük etimad göstərilir. Ölkəmizdə Birinci Avropa Oyunları keçirilərkən Avropa Olimpiya Komitələrinin rəhbərliyi Azərbaycanın dünyanın ən çox inkişaf etmiş idman ölkəsi olduğunu bildirmişdi. Burada tikilən Olimpiya İdman kompleksləri, keçirilən beynəlxalq turnirlər, dünya və Avropa çempionatları həm say çoxluğu, həm də yüksək təşkilatçılıq səviyyəsi ilə fərqlənir. Məhz bu amillər beynəlxalq idman qurumlarının rəhbərliyinin diqqətini cəlb edir.

XV Avropa Gənclər Olimpiya Festivalı demək olar ki, yeniyetmələrin Olimpiya Oyunları səviyyəsində təşkil olunan yarışdır. Yarışların adının festival olması da təsadüfi deyil. İdman olan yerdə mədəniyyət də, incəsənət də, təhsil də var. SSRİ dövründə də gənclər arasında beynəlxalq festivallar keçirilirdi. 1957-ci ildə mən də idmançı kimi festivalda iştirak etmişdim. Belə yarışların təşkilində məqsəd həm idman yarışlarının keçirilməsi, həm də ölkələrarası mədəniyyət mübadiləsi proqramlarının həyata keçirilməsidir. Bilirsiniz ki, Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan YUNESKO-nun ən ali məqsədi sağlam gəncliyin inkişafına diqqət yetirməkdir. Gənclər bəşəriyyətin gələcəyidir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın YUNESKO dəyərlərinin təbliği istiqamətində gördüyü işlər ali məqsədlər uğrunda fəaliyyətin ən yüksək göstəricisidir. Deyərdim ki, Avropa Gənclər Olimpiya Festivalının Azərbaycanda təşkili də məhz bu ali məqsədə-sağlam gəncliyin inkişafına xidmət edir. Digər tərəfdən bilirsiniz ki, Olimpiya Oyunlarının fəlsəfəsi də məhz idman yolu ilə insanları təhsilə və mədəniyyətə daha da yaxınlaşdırmaqdır.

***- Ölkəmiz kompleks yarışların təşkilində kifayət qədər təcrübəyə malikdir. Sizcə gələcəkdə Olimpiya Oyunlarının Azərbaycana həvalə olunması şansları nə qədərdir?***

- Qeyd edim ki, keçmiş SSRİ ölkələri arasında ilk dəfə Gənclər və İdman Nazirliyi adlı təşkilat məhz Azərbaycanda yaradılıb. Bu təşkilatın yaradılmasında məqsəd gənclərin pis vərdişlərdən uzaqlaşaraq idmana yönəlmələrinə, sağlam həyat tərzi keçirmələrinə şərait yaratmaq idi. Əsası ümummilli lider tərəfindən qoyulan bu siyasət Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz buna görə də ölkəmizdə həm idman inkişaf edir, həm də gənclərimizin elm, təhsil və mədəniyyət sahəsində bacarıqları artır. Bu festivalın təşkili Azərbaycanın uğurlu idman siyasətinin nəticəsidir. Ümumiyyətlə, kompleks idman yarışlarının Azərbaycana həvalə olunması bu sahəyə dövlət tərəfindən göstərilən diqqət və qayğının nəticəsidir. İndiyədək ölkəmizdə bir sıra beynəlxalq turnirlər, Avropa və dünya çempionatları keçirilib. Yüksək təşkilatçılıq bacarığı, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınması, bizə olan etimadın artmasına səbəb olmuşdur. Məlumdur ki, kompleks yarışların təşkili zamanı ölkə idmanının inkişaf səviyyəsini görmək mümkündür. Azərbaycan I Avropa Oyunlarının təşkili zamanı nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Ölkəmizdə inşa olunan Olimpiya kompleksləri, idman bazaları bizi dünyaya tanıtdı. İdman infrasrukturunun olması ölkənin böyük yarışları qəbul etməyə hazırlığını nümayiş etdirməklə yanaşı, şansları daha da artırdı. Mötəbər yarışların təşkili üçün şəraitin olması beynəlxalq qurumları da arxayın edir. Onlar belə yarışların təşkili üçün şəraiti Azərbaycanda tapıblar və yarışlar keçirilərkən narahat olmurlar. İnanıram ki, Azərbaycanın Olimpiya Oyunlarına ev sahibliyi edəcəyi gün uzaqda deyil.



***- Necə düşünürsünüz, bu festivalda iştirak idmançılarımız üçün hansı təcrübəni qazandırdı?***

- Gənclərin idmanla məşğul olması, onların kiçik yaşlarından mötəbər yarışlarda iştirakı idmanın gələcəyini sığorta etməkdir. Bu festivalda işirak etməklə idmançılarımız növbəti Olimpiya Oyunlarına təcrübə əldə etmiş olurlar. Bu yaşda əldə olunan beynəlxalq təcrübə bir neçə ildən sonra öz sözünü deyəcək. Festivalda iştirak bütün ölkə idmançıları üçün böyük idmana gedən yolda tramplin rolunu oynayır.

***- Komandamızın nəticəsi barədə də fikirlərinizi bilmək istərdik.***

- Gənc idmançılarımız güclərini bütün dünyaya bir daha nümayiş etdirdi. Əvvəlcədən nəticədən bir qədər narahat idim. Çünki böyüklər arasında yarışlarda idmançıların qazandıqları əvvəlki medallara, təcrübəyə əsasən proqnoz vermək mümkündür. Gənclər arasında isə bunu demək çətindir. Əvvəlki festivallarla müqayisədə idmançılarımız daha çox sayda medal qazandı və bir sıra güclü Avropa ölkələrini geridə qoydu.

***- Yarışların açılış və bağlanış mərasimi barədə nə deyə bilərsiniz?***

- Açılış və bağlanış mərasimi möhtəşəmliyi ilə yadda qaldı və mən deyərdim ki, bu festival məhz gənclərin ruhuna uyğun keçirildi. Təşkilatçılıq baxımından da mərasimlər fərqlənirdi. Bu mərasim əvvəlcə gənclərin xoşuna gəlməli idi, sonra bizim. Açılışın müsbət ab-havası idmançıları qələbəyə ruhlandırdı və qanadlandırdı.

*Aysel Sultanova*

## "Yelkənli idmanın bir günü" adlı tədbir təşkil olunub

Avqustun 26-da Aprel şəhidlərinin övladları üçün "Yelkənli idmanın bir günü" adlı əyləncəli-maarifləndirici tədbir təşkil edilib.

Tədbir Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF) və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Tədbirin məqsədi şəhid övladlarının yelkənli idmanla tanış olması, onlarda bu idman növünə maraq və istəyin aşılanması, yelkənli qayıqların idarə edilməsi barədə məlumatlandırılması olub. Ümumilikdə 16 iştirakçının qatıldığı tədbirdə yelkənli qayıqdan istifadə qaydaları, açıq dənizdə küləklə mübarizə, küləyin istiqamətinin seçilməsi, qayıqların təhlükəsiz idarə edilməsinin sirləri öyrədilib.



Federasiyanın "Laser" və "Optimist" sinifləri üzrə beynəlxalq dərəcəli baş məşqçiləri Seyhun Yıldız və Tuğçə Subaşının təlim-məşqləri iştirakçıların marağına səbəb olub.

Federasiyanın yığma komandasının üzvləri beynəlxalq dərəcəli məşqçilərin nəzarəti altında tədbir iştirakçılarının açıq dənizdə yelkənli qayıqlardan təhlükəsiz istifadəsini təmin ediblər. Açıq dənizdə yelkənli qayıqlarla gəzinti, eyni zamanda, sahildə təşkil edilən əyləncəli oyunlar şəhid övladları tərəfindən böyük maraq və sevinclə qarşılanıb. Tədbir zamanı, həmçinin iştirakçılara yelkənli idman növü, idmançıların beynəlxalq yarışlara hazırlığı, federasiyanın yığma komandasının ölkədə və xaricdə təlim-məşq düşərgələrində iştirakı, komanda üzvlərinin yüzlərlə dünya şöhrətli peşəkar idmançının qatıldığı yarışlarda ölkəmizi uğurla təmsil etməsi, yelkənçilərimizin taktiki biliklərinin və müxtəlif hava şəraitində yarış təcrübələrinin daha da artırılması, əldə etdikləri nailiyyətlər barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, aktiv bazası 2014-cü ildən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi maddi-texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində "Optimist" sinfi üzrə 7-14 yaş uşaqlar, "Laser" sinfi üzrə isə 14 yaşdan yuxarı yeniyetmələri bu idman növünə cəlb etməkdir.

## "Dünya məktəbi"ndə keçirilən şahmat turnirinin qalibləri müəyyənləşib

Xəzər Universitetinin "Dünya məktəbi"ndə şahmat üzrə rapid turniri keçirilib. Yarışda 30 şahmatçı iştirak edib. Turnirin rəsmi açılış mərasimində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçi Salman Əbdülov və "Dünya məktəbi"nin şahmat klubunun rəhbəri, FIDE ustası Elşad Rzayev çıxış edərək idmanın bu növünün ölkəmizdəki inkişafından danışıblar. Onlar belə turnirlərin şahmatçıların yarış təcrübəsinin zənginləşməsində əhəmiyyətini qeyd ediblər.



Yeddi turdan ibarət İsveçrə sistemi üzrə keçirilən rapid turnirində Xəzər Babazadə, Kamal Ağasıyev və Gövhər Beydullayeva ilk üçlükdə qərarlaşıblar.

Sonda yarışda fərqlənmiş şahmatçılar təltif olunublar.

## Paralimpiya millimiz dünya çempionatına Qəbələdə hazırlaşır

Güllə atıcılığı üzrə Paralimpiya milli komandamız dünya çempionatı öncəsi Qəbələdə təlim-məşq toplanışı keçirir. Hazırlıq prosesi sentyabrın 3-dək davam edəcək.

Təlim-məşq toplanışı oktyabrda Avstraliyanın Sidney şəhərində təşkil olunacaq dünya çempionatına hazırlıq məqsədi daşıyır. Çempionat Tokio-2020 Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya verəcək.

## "Sevinc" kuboku turniri başa çatıb

Gəncədə 2008-2010-cu il təvəllüdlü futbolçular arasında keçirilən mini futbol üzrə məhəllələrarası "Sevinc" kubokunun "Dəri" top mükafatı uğrunda şəhər birinciliyi başa çatıb.



Gərgin keçən final qarşılaşmasında "Gəncə" komandası "Qarabağ-1" üzərində 5:2 hesablı qələbə qazanıb.

Yarışda 160-a yaxın idmançı iştirak edib. "Sevinc" kubokunun "Dəri" top mükafatı uğrunda keçirilmiş mini futbol üzrə Gəncə şəhər birinciliyində "Təhsil" Respublika İdman Mərkəzinin 1 nömrəli Uşaq Gənclər İdman Şahmat məktəbinin "Gəncə" komandası birinci, Baş İdarə nəzdində olan Uşaq Gənclər İdman Məktəbinin "Qarabağ-1" komandası ikinci, 2 nömrəli Uşaq Gənclər İdman Şahmat məktəbinin "Çinar" komandası üçüncü yerə layiq görülüb.

Qalib komandalar Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərmanları və hədiyyələri ilə təltif olunublar.

**Cüdo**

# İJF-in Nizamnaməsində bəzi dəyişikliklər edilib

Yaponiyanın paytaxtı Tokioda Beynəlxalq Cüdo Federasiyasının (İJF) konqresi keçirilib. Konqresdə İJF-in İcraiyyə Komitəsinin üzvləri, üzv ölkələrin nümayəndələri və digər rəsmilər iştirak ediblər. Ölkəmizi konqresdə Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı təmsil edib.

Tədbirdə əvvəlcə Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizerin hesabat məruzəsi dinlənilib. M.Vizer cüdonun dünyada geniş təbliği məqsədilə CNN, Reuters, Eurosport kimi nəhəng media şirkətləri ilə uğurlu əməkdaşlıqdan, cüdo təqvimindən, 2020-ci il Yay Olimpiya Oyunlarına hazırlıqdan bəhs edib. O, cüdonun bütün dünyada inkişaf etdirilməsi üçün müxtəlif dövlətlərə hərtərəfli dəstək göstərildiyini vurğulayaraq marketinq, informasiya texnologiyaları, beynəlxalq humanitar təşkilatlarla iş birliyi, təhsil məsələləri və gələcək hədəflərdən




söhbət açıb. Sonra təşkilatın baş katibi Jan Luk Roje, baş xəzinədar Nasir Əl-Tamiminin hesabatları dinlənilib.

Daha sonra beynəlxalq federasiyanın müvafiq strukturlarına seçkilər keçirilib. Jan Luk Roje və Nasir Əl-Tamimi növbəti dörd il müddətinə öz vəzifələrinə təsdiq olunublar.

Konqresdə, həmçinin IJF-in Nizamnaməsinə nizam-intizam və etik məsələləri ilə bağlı dəyişikliklər edilib. Sonra müxtəlif sahələr üzrə məsul şəxslər hesabat məruzələri ilə çıxışlar ediblər. Daha sonra müxtəlif qitələr üzrə nümayəndələr görülən işlər barədə məlumat veriblər.

**Gimnastika**



# Baş məşqçi FİG-in diplomu ilə təltif olunub

Beynəlxalq Gimnastika Federasiyanın (FİG) İcraiyyə Komitəsinin Nikaraquanın Manaqua şəhərində keçirilən iclasında Azərbaycanla əlaqədar daha bir qərar qəbul edilib.

Bədii gimnastika üzrə yığma komandamızın baş məşqçisi Mariana Vasileva FİG tərəfindən Əməkdar məşqçi diplomu ilə təltif olunub.

Qeyd edək ki, Mariana Vasileva 2008-ci ildən Azərbaycan millisinin baş məşqçisi vəzifəsində çalışır. Onun rəhbərliyi ilə bədii gimnastlarımız bir çox irimiqyaslı beynəlxalq yarışlarda medallar qazanaraq dünya arenasında ölkəmizi layiqincə təmsil ediblər. Mariana Vasilevanın Azərbaycanda gimnastika məktəbinin formalaşmasında böyük əməyi var.

# *Bədii gimnastlarımız dünya kuboku yarışlarında çıxış ediblər*

Bədii gimnastika üzrə yığma komandamızın üzvləri Belarusun paytaxtı Minskdə təşkil olunan "Challenge" seriyasına aid dünya kuboku yarışlarında çıxış ediblər. Bir müddət yarışlara fasilə verdikdən sonra gimnastlarımız üçün ilk start olan bu turnirdə Aliyə Paşayeva, Ayşən Bayramova, Diana Əhmədbəyli, Zeynəb Hümmətova və Darya Sorokinadan ibarət qrup hərəkətləri komandası çoxnövçülükdə 51.150 xalla 9-cu yerdə qərarlaşıb. Qızlarımız, həmçinin ayrı-ayrı kompozisiyalar üzrə çıxışlara görə də sıralamada 9-cu olublar.

Yarışlarda fərdi proqramda ölkəmizi Zöhrə Ağamirova və Veronika Qudis təmsil ediblər. Gimnastlarımız çoxnövçülükdə müvafiq olaraq 18-ci və 23-cü yerdə qərarlaşıblar.

**Ağırlıqqaldırma**

# Yığma komandamız yarışlara Lahıcda hazırlaşır

Kişilərdən ibarət ağırlıqqaldırma üzrə Azərbaycan yığması qarşıdakı beynəlxalq yarışlara hazırlıqlarını İsmayıllı rayonunun Lahıc qəsəbəsində davam etdirir. Avqustun 10-dan başlayan təlim-məşq toplanışı sentyabrın 1-nə qədər davam edəcək.

Məşqçilər heyəti il ərzində hazırlıq məkanlarının dəyişdirilməsinin vacibliyi səbəbindən bu dəfə münasib ilqimi olan və yüksək dağlıq ərazi kimi Lahıcı seçib. Yığma komandanın məşqləri intensiv şəkildə aparılır.

Toplanış barədə yığma komandanın baş məşqçisi Asif Məmmədov məlumat verib: "İlin ikinci yarısında bir neçə vacib beynəlxalq yarışımız var. Sentyabr ayında böyüklər arasında dünya çempionatı, sonrakı aylarda isə gənclər və yeniyetmələr arasında Avropa birincilikləri keçiriləcək. Hazırda İsmayıllı rayonunun Lahıc qəsəbəsində hazırlıq keçirik. Təlim-məşq toplanışı sentyabr ayına qədər davam edəcək. Bu məkanın seçilməsində məqsəd onun coğrafiyasının üstünlüklərindən yararlanmaqdır. Bildiyiniz kimi, bura dəniz səviyyəsindən 1500 metr yüksəklikdədir. Burada keçirilən məşqlər idmançılarımızın hazırlığını qısa müddətdə xeyli artırmaq imkanı verir. İki həftədir buradayıq, toplanışımız yaxşı gedir, nə məşq, nə qidalanma, nə istirahət, nə də bərpa ilə bağlı heç bir problemimiz yoxdur, bütün lazımi şəraitlə təmin olunmuşuq. Komandada zədəli idmançı yoxdur və yarışlara



tam heyətlə hazırlaşırıq. Qarşıdakı beynəlxalq yarışlarda qənaətbəxş nəticə əldə etməyi düşünürük. İnanırıq ki, bu hazırlığın bizə böyük köməyi olacaq".

**Şahmat**

# *Qrossmeysterimizdən növbəti heç-heçə*

ABŞ-ın Sent-Luis şəhərində təşkil olunan Sinkfild kuboku turnirinin səkkizinci turunun görüşləri keçirilib.

Şahmatçımız Şəhriyar Məmmədyarov növbəti turda hollandiyalı Aniş Qiri ilə "sülhə" razılaşıb. Qeyd edək ki, şahmatçımız ötən turların hamısında rəqibləri ilə xalı yarı bölüb.

Ötən turda yalnız Rusiya təmsilçiləri qələbə qazanıblar. Belə ki, Sergey Karyakin Maksim Vaşe-Laqravı (Fransa), Yan Nepomnyaşi erməntistanlı Levon Aronyanı məğlub edib. Amerikalı şahmatçı Hikaru Nakamuranın həmyerlisi Uesli So, Fabiano Karuananın V.Anand, hazırkı dünya çempionu norveçli Maqnus Karlsenin çinli Dinq Lirenlə qarşılaşmalarında da bərabərlik qeydə alınıb.

Ş.Məmmədyarovun səkkiz turdan sonra aktivində 4 xal var. V.Anand, D.Liren, F.Karuana, S.Karyakin, Y.Nepomnyaşı hərəyə 4,5, M.Karlsen, U.So 4, M.Vaşe-Laqrav, A.Qiri, H.Nakamura 3,5, L.Aronyan 3 xal toplayıb.

Turnir avqustun 29-dək davam edəcək.

**Voleybol**

# Qadın voleybolçularımız Avropa çempionatında mübarizə aparırlar

Avqustun 23-də Macarıstan, Polşa, Slovakiya və Türkiyənin birgə ev sahibliyi etdiyi qadın voleybolçular arasında Avropa çempionatına start verilib. C qrupunda mübarizə aparan millimiz Macarıstanın paytaxtı Budapeştdə Xorvatiya yığması ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüş Azərbaycan millisinin 3:2 (25:13, 20:25, 22:25, 26:24, 17:15) hesablı qələbəsi ilə yekunlaşıb.

Voleybolçularımız növbəti görüşünü avqustun 25-də Hollandiya millisinə qarşı keçirib. Təəssüf ki, komandamız bu görüşdə Hollandiya millisinə məğlub olub - 0:3. Hesabında 6 xal olan Hollandiya və Rumıniya komandaları qrupda ilk iki pillədə yer alıblar. Xorvatiya 4 xalla üçüncü, Macarıstan isə 3 xalla dördüncüdür. Millimiz 2 xalla beşinci sıradadır. Xalı olmayan Estoniya millisi isə qrupda sonuncudur.

C qrupunun oyunları Budapeştdə təşkil olunub.

Azərbaycan millisinin heyətində Yana Əzimova, Kristina Yaqubova, Şəfaqət Alışanova, Ayşən Abduləzimova, Olena Həsənova, Kseniya Pavlenko, Mariya Kirilyuk, Anastasiya Qurbanova, Odina Əliyeva, Yelizaveta Səmədova, Anastasiya Bessonova, Polina Rəhimova, Marqarita Əzizova və Bəyaz Əliyeva yer alıblar.

Millimiz Avropa çempionatlarında 2005-ci ildə debüt edib. Xorvatiyada təşkil olunan qitə birinciliyində Azərbaycan millisi dördüncü olub. Səkkizinci dəfə Avropa çempionatında gücünü sınayacaq yığmamız mükafatçılar sırasına düşə bilməyib.

Qadınların yarışında final matçı Türkiyədə, kişilərin mübarizəsində isə həlledici qarşılaşma Fransada təşkil olunacaq.



Xatırladaq ki, iki il əvvəl Azərbaycanın və Gürcüstanın birgə ev sahibliyi ilə keçirilən 30-cu Avropa çempionatında qızıl medalları Serbiya voleybolçuları qazanıblar. Sonrakı yerlərdə Hollandiya, Türkiyə və Azərbaycan komandaları qərarlaşıblar.

Qitə çempionatına sentyabrın 8-də yekun vurulacaq.

**Paralimpiya**

# Milli Paralimpiya Komitəsi Azərbaycandakı Amerika Ticarət Palatası ilə əməkdaşlıq edəcək

Milli Paralimpiya Komitəsində (MPK) Azərbaycandakı Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") nümayəndələri ilə görüş keçirilib.

Görüşdə iki qurum arasında birgə əməkdaşlığın mümkün istiqamətləri müzakirə edilib.

MPK-nın prezidenti İlqar Rəhimov ölkəmizdə Paralimpiya hərəkatının inkişafı sahəsində görülmüş işlər, əldə olunmuş nailiyyətlər və gələcək planlar barədə "AmCham Azərbaycan"ın nümayəndələrinə geniş məlumat verib, birgə əməkdaşlığın mümkün istiqamətləri barədə öz təkliflərini qonaqların diqqətinə çatdırıb.

"AmCham Azərbaycan"ın icraçı direktorunun müavini Zaur Kərimov çalışdığı qurumun fəaliyyəti barədə məlumat verib. Z.Kərimov həmişə MPK-nın fəaliyyətini izlədiklərini və paralimpiyaçılarımızın əldə etdikləri uğurlara sevindiklərini bildirərək, komitə ilə yaxından əməkdaşlıq etməkdə maraqlı olduqlarını qeyd edib.



Müzakirələrin yekunu olaraq paralimpiya hərəkatının inkişafına dəstək ola biləcək birgə layihələrin və təqdimatların hazırlanması, korporativ sosial məsuliyyət mövzusunda tədbirlərin keçirilməsi və bu istiqamətdə nüfuzlu şirkətlərlə əlaqələrin qurulması sahəsində birgə fəaliyyət barədə razılığa gəlinib.

**Stolüstü tennis**

# Macarıstandan iki medalla

Avqustun 20-də Macarıstanın Kişkunfeledhaza şəhərində Azərbaycanın yeniyetmə stolüstü tennisçilərinin də iştirak etdiyi mini kadetlər üçün təşkil olunmuş təlim-məşq toplanışı və beynəlxalq turnir başa çatıb.



Avropa Stolüstü Tennis Birliyinin və Beynəlxalq Stolüstü Tennis Federasiyasının "Avrotalant" (İstedad axtarışı) layihəsi çərçivəsində keçirilən turnirdə Avropanın müxtəlif ölkələrindən 50-dən artıq idmançı beynəlxalq dərəcəli mütəxəssislər heyəti qarşısında bilik və bacarıqlarını nümayiş etdiriblər.

Azərbaycanın yeniyetmələrdən ibarət yığma komandası turnirdə 6 idmançı (3 qız, 3 oğlan) ilə təmsil olunub. Qızlar arasında keçirilən yarışda Mərziyyə Nürmətova gümüş, Aylin Əsgərova isə bürünc medal qazanıb. Komandamızın digər üzvü Arzu Aslanova isə turniri dördüncü yerdə başa vurub. Oğlanlar arasında mübarizə aparan Hüseyn Eylazov 5-ci, Adil Əhmədzadə isə 6-cı yerlə kifayətlənib.

Qeyd edək ki, "Avrotalant" layihəsi çərçivəsində keçirilən turnir və təlim-məşq toplanışının məqsədi milli assosiasiyaların idmançıları arasında ən istedadlı gəncləri seçib onlara dəstək olmaqdır.




*Ötən ay Bakıda keçirilən XV Avropa Gənclər Olimpiya Festivalı Azərbaycan cüdoçuları üçün də yaddaqalan oldu. Heydər Əliyev adına İdman Arenasında tatami üzərinə çıxan 12 (8 oğlan, 4 qız) idmançımızdan 2-si qızıl, 1-i gümüş, 3-ü isə bürünc medala layiq görüldü. Cüdoçularımız bu nəticə ilə komanda hesabında üçüncü pillədə qərarlaşdılar. Oğlanlardan ibarət komandamız isə festivalı birinci pillədə başa vurdu.*

# "Olimpiya festivallarının yeniyetmə idmançılar üçün əhəmiyyəti çox böyükdür"



Sözsüz ki, qazanılan medallarda tək Azərbaycan Cüdo Federasiyasının deyil, ölkəmizdə fəaliyyət göstərən idman klublarının da payı kifayət qədərdir. Bakıdakı festivalda fəxri kürsüdə yer alan idmançılar ölkənin qabaqcıl klublarında məşq edir və illərlə çəkdikləri əziyyətlər sayəsində bu pilləyə gəlib çatırlar. Belə idman ocaqlarından biri də paytaxtın ən müasir idman klublarından olan "Judo Club 2012"dir. Veteranlar arasında dəfələrlə dünya və Avropa çempionu, cüdo üzrə Əməkdar idman ustası, Azərbaycan Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü, "Cüdo Klub 2012" İctimai Birliyinin sədri Azər Əsgərov tərəfindən təsis olunan klubda idmançıların yüksək səviyyədə məşq etməsi üçün hər cür şərait yaradılıb. Klubun idmançıları da bu diqqət və qayğıdan yararlanaraq nailiyyətlərini artırmağa çalışırlar. Avropa Gənclər Olimpiya Festivalında qızıl medal qazanan Hüseyn Məmmədov (+90 kq) də bu idman klubunun yetirməsidir. Qəzetimizin ötən sayında klubun istedadlı yetirməsi ilə müsahibəni dərc etmişdik. Oxucular həmin müsahibədə yeniyetmə cüdoçunun idmana gəlişi, Bakı-2019-da keçdiyi zəfər yolu və gələcək planları haqqında ətraflı məlumat əldə etmişdilər. Bu dəfəki sayımızda isə H.Məmmədovun məşq etdiyi kluba yollanaraq, idmançı haqqında "Judo Club 2012"nin rəsmilərinin fikirlərini öyrəndik. Burada bizi cüdo və sambo üzrə SSRİ idman ustası, Azərbaycanın Əməkdar məşqçisi, təqaüddə olan polis polkovniki, "Judo Club 2012"nin direktoru Hafis Hacıyev qarşıladı. Hafis müəllim bizimlə söhbətində klubun yetirməsinin Bakı-2019-da uğurlu çıxış etdiyini bildirərək, onun bu nəticə ilə klubun digər idmançıları üçün də nümunə olduğunu dedi.

"Azərbaycan cüdoçuları Avropa Gənclər Olimpiya Festivalını uğurla başa vurdular. Qazanılan medallar da bunu bir daha təsdiqləyir. Sevindirici haldır ki, festivalda fərqlənən idmançılar arasında "Judo Club 2012"nin yetirməsi Hüseyn Məmmədovun da adı var. Hüseyn klubun ən perspektivli idmançılarından biridir. O, festivaldan bir ay əvvəl Polşada təşkil olunan Avropa birinciliyində bürünc medal qazanmışdı. Hüseyn əldə etdiyi uğurlu nəticələrlə klubumuzun digər idmançılarına da örnəkdir. Bu qələbə həm də, klubda işlərin yüksək səviyyədə qurulduğunun göstəricisidir. Festivalların nəticələrinə nəzər salsaq, bu yarışın qalibləri arasından gələcəyin Olimpiya çempionları və mükafatçılarının çıxdığını görərik. Bu səbəbdən Olimpiya festivallarının yeniyetmə idmançılar üçün əhəmiyyəti çox böyükdür. Festival idmançıların gələcəkdə böyük qələbələrinə təkan verməklə, onların istəklərini də tam şəkildə ortaya qoyur. Həmin idmançılar artıq özlərinə daha çox güvənirlər. Çalışırlar ki, nəticələrini böyüklər arasında keçirilən dünya, Avropa çempionatlarında və Olimpiya Oyunlarında təkrarlasınlar. İnanıram ki, Hüseyn də gələcəkdə bundan istifadə edərək Olimpiya Oyunlarının ən ağır çəkili cüdoçusu kimi, Azərbaycanın idman tarixinə düşəcək. Onda bu istedad və istəyi görürəm", - deyə Hafis Hacıyev bildirdi.

Əməkdar məşqçi bildirdi ki, rəhbərlik etdiyi klubun uğurları təkcə Hüseynin qazandığı nailiyyətləri əhatə etmir. Həmin idman ocağında gələcəyin istedadlı cüdoçuları da yetişirlər.

"Bu gün klubun kifayət qədər istedadlı idmançıları var. Düzdür, festivalda Hüseynlə yanaşı, klubun digər istedadlı üzvü Nicat Məmmədli də iştirak etməli idi. Lakin onun adı yarışın iştirak ərizəsinə daxil edilmədi. Qeyd edim ki, Nicat Məmmədli də sonuncu Avropa birinciliyinin bürünc medalçısıdır. Klub bir neçə ildir ki, fəaliyyət göstərməsinə baxmayaraq, əldə olunan nəticələrimiz kifayət qədərdir. Təbii ki, bu gün "Judo Club 2012"nin bu səviyyəyə çatmasında, uğurlarımızın artmasında Azər Əsgərovun rolu çox böyükdür. Azər Əsgərov bu gün, həqiqətən də, ölkəmizdə cüdonun inkişafı üçün öz bacarığını əsirgəmir. O, klubda hər bir idmançıya və məşqçiyə diqqət və qayğı ilə yanaşır, onların bütün istəklərini həyata keçirməyə çalışır", - deyə Hafis Hacıyev bildirdi.

Hüseyn Məmmədovun qələbəsinə hədsiz dərəcədə sevinənlərdən biri də onun şəxsi məşqçisi, "Judo Club 2012"nin cüdo üzrə baş məşqçisi, Azərbaycanın Əməkdar məşqçisi Tərlan Həsənovdur. Yetirməsinin Bakı-2019-da qazandığı uğuru yüksək nəticə kimi dəyərləndirən mütəxəssis Azərbaycan cüdosunun Hüseyn Məmmədov kimi yeni bir ağır çəkili pəhləvan qazandığını qeyd etdi: "Hüseyn 8 yaşından cüdo idman növü ilə məşğul olur. Hələ idmana yeni başlayan vaxtlarından onun çox böyük fiziki gücə malik olduğunu müşahidə etmişdim. Hüseynin, həqiqətən də, gələcək üçün böyük potensial və edən idmançı olacağını düşünürdüm. Yaşının az olmasına baxmayaraq yarışlarda fəallığı ilə seçilirdi. Hüseyn bu yarışa qədər, respublika çempionatları ilə yanaşı, Avropa Kuboku və digər beynəlxalq turnirlərdə medallar qazanıb. Bu ili gənc idmançı üçün uğurlu adlandırmaq olar. Belə ki, o, ötən ay Polşanın paytaxtı Varşavada təşkil olunan Avropa birinciliyində üçüncü yeri tutub. Avropa Gənclər Olimpiya Festivalındakı tarixi nailiyyət isə bu istedadlı cüdoçunun daha böyük qələbələrinin müjdəçisidir. Onun hələ 17 yaşı var. İnanıram ki, Hüseyn gələcəkdə ustalıq səviyyəsini daha da artıraraq, dünya, Avropa və Olimpiya Oyunlarının mükafatçıları sırasında yer alacaq".



Klubun nümayəndələri ilə söhbət zamanı öyrəndik ki, "Judo Club 2012"nin yeniyetmə və gənc idmançılarını gələn ay dünya çempionatı gözləyir. İnanırıq ki, klubun yetirmələri bu məsul yarışlarda da uğurla çıxış edərək, ölkəmizə medallarla qayıdacaqlar.

*Azər Əlizadə*

# Taekvondoçular xatirə turnirində bir araya gələcəklər




Sentyabrın 21-22-də Şağan Olimpiya İdman Kompleksində Azərbaycanın Milli Qəhrəmanı Tahir Həsənovun xatirəsinə həsr olunan taekvondo üzrə açıq birincilik keçiriləcək.

Yarışda 2002-2004-cü, 2005-2007-ci, 2008-2009-cu, 2010-2011-ci illər təvəllüdlü oğlan və qızlar mübarizə aparacaqlar.

Uşaq, yeniyetmə və gənc taekvondoçular arasında təşkil olunacaq turnirin məqsədi bu idman növünü təbliğ və inkişaf etdirmək, ən yaxşı məktəbli taekvondoçuları aşkarlamaq, yığmaya namizədləri seçmək, məktəblərdə taekvondoya marağı artırmaq, məktəbliləri bu idman növü ilə müntəzəm məşğul olmağa cəlb etmək, onların ustalıq səviyyəsini artırmaqdır.

Yarış Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Azərbaycan Məktəb İdmanları Federasiyalarının təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Taekvondo Federasiyasının dəstəyi ilə beynəlxalq taekvondo qaydalarına uyğun keçirilir.

Turnirdə hər çəki dərəcəsində fəxri yerləri tutmuş idmançılar müvafiq dərəcəli diplom, medallar və xatirə hədiyyələri ilə mükafatlandırılacaqlar.

# Uşaq paralimpiyaçılar üzgüçülük yarışlarında



Respublika Paralimpiya İdman Kompleksində Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr olunmuş üzgüçülük üzrə açıq çempionat keçirilib.



Çempionatda müxtəlif yaş kateqoriyalarında olan 100-dək idmançı, o cümlədən Uşaq Paralimpiya Komitəsinin üzgüçüləri iştirak ediblər.

Turnirdə 2009-2010-cu il təvəllüdlü uşaqlar arasında paralimpiyaçı Əli Vəliyev, 2007-2008-ci il təvəllüdlülərin yarışında Elnarə Nizami və Əli Səfərəlizadə 50 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarında birinci oldular. Görmə məhdudiyyətli paralimpiyaçı Elxan Qurbanov isə öz yaşdıları arasında üçüncü yeri tutub.

Beləliklə, çempionatda iştirak edən uşaq paralimpiyaçılar 3 qızıl və 1 bürünc medal qazanıblar.

# Futzal liqalarında mövsümün başlama vaxtı müəyyənləşib

Futzal üzrə Yüksək, Birinci və İkinci liqalarda 2019-2020-ci il mövsümünün başlama vaxtı müəyyənləşib.

Yüksək Liqaya sentyabrın 11-də start veriləcək. Birinci Liqanın oyunları isə iki gün ərzində keçiriləcək. Bu liqada oyunlar sentyabrın 13-də və 14-də başlayacaq. İkinci Liqada birinci turun görüşləri sentyabrın 15-də baş tutacaq.

Bütün liqaların oyunları Bakı İdman Sarayında keçiriləcək.

*Bölgə idmanı*

## Rayon birinciliyinin qalibləri mükafatlandırılıblar

Biləsuvar Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayonun "Bilyard klubu"nda rayon birinciliyi keçirilib. Birinciliyin mükafatlandırma mərasimində çıxış edən Biləsuvar Rayon Gənclər və İdman İdarəsinin rəisi Azad Quliyev yarışın keçirilməsində əsas məqsədin gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması və bilyard idman növünün daha da inkişaf etdirilməsidir. O, mükafatalayiq yerlər tutan gəncləri təbrik edib, onlara uğurlar arzulayıb.

Olimpiya sistemi ilə keçirilən mübarizənin final mərhələsində yüksək nəticə göstərən Ruslan Əmirli birinci yeri tutub. İlqar Feyzizadə ikinci, Kənan Məmmədli üçüncü yerə sahib olublar.



Qaliblər Biləsuvar Rayon Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

## Bərdə Olimpiya İdman kompleksində respublika turniri keçirilib




Avqustun 23-də Bərdə Olimpiya İdman Kompleksində aprel döyüşlərində şəhid olmuş baş leytenant Ziya Həsənovun xatirəsinə həsr edilmiş uşu üzrə respublika turniri keçirilib. Yarışda şəhər və bölgələrdən 200-ə yaxın idmançı mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda qalib və mükafatçılar müəyyənləşib. Yarışın qalibləri diplom və medallarla təltif olunublar.



*İnsan zəkasının məhsulu olan şahmat bəşəriyyətin ən böyük icadı olan kompyuterlə sıx əlaqəlidir. Müasir dövrümüzdə zəka sahibləri ən güclü partiyaları onun vasitəsilə oynayırlar. Bəzən şahmatçılar kompyuterlə qarşılaşmada məğlubiyyətlə üzləşirlər. Amma unutmaq lazım deyil ki, bu "dəmir parçası"nı yaradan da məhz şüurlu insandır. Yəni insanın düşüncəsi və təfəkkürü hər şeydən üstündür.*



# Düşünülmüş şahmatı yalnız insan oynaya bilər

## Tarixə düşən icadlar, onların sirri

Hələ kompyuter icad olunmayan vaxtlarda insanlar şahmat qurğusu yaratmaq haqqında düşünürdülər. Bunun üçün onlar tarixə yeni bir icad bəxş etdilər. Belə ki, Avstriya kraliçası Mariya Terezanın sifarişi ilə hazırlanmış "şahmat oynayan türk" (XVIII) adlı aparat şahmat tarixinin ilk avtomat qurğusu oldu.

Bu qurğu çox ustalıqla hazırlansa da, sonradan onun saxta və bəsit olduğu üzə çıxdı. Sən demə, qurğunun içərisində canlı şahmatçı əyləşirmiş. İnsanları bir müddət aldatdıqdan sonra, həmin qurğunun sirri açıldı və o öz dəyərini itirdi.

Növbəti şahmat qurğusu II Dünya müharibəsindən sonra hazırlandı. O dövrün məşhur riyaziyyatçısı Alan Tyurinq maşında şahmat oynamaq üçün alqoritm hazırladı. 1947-ci ildə Tyurinq ilk şahmat proqramını yaratdı. Onunla bir vaxtda bu işlə daha bir şahmatçı - Klod Şennon da məşğul olurdu. 1949 -1950-ci illərdə o, şahmatda həlli çətin tapılan bir məsələ yaratdı: Hər gedişdən sonra variantların sayı arta bilər.

Tədqiqatçı bu məsələnin həlli üçün 2 variant üzərində dayanmışdı: A - şahmatın bütün variantlarından istifadə strategiyası; B - şahmatçıların təcrübəsinə əsaslanaraq, lazım olmayan variantların kənara atılması.

İlk kompyuterin layihəsi Con fon Neyman tərəfindən hazırlandı. Bu layihə, əslində nüvə silahının hazırlanmasında qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün idi. 1 saniyədə 10 min əməliyyatı yerinə yetirəcək layihənin nümunəsi 1950-ci ildə ictimaiyyətə təqdim olundu. Bu layihə ilk dəfə şahmat proqramını tərtib edən aparatda tətbiq edildi.

Düzdür, o zaman şahmatın fiqurları standart deyildi. Lövhədə cəmi 12 fiqur olurdu, fil isə, ümumiyyətlə, yox idi. Bir neçə ildən sonra fon Neymanın yaratdığı bu kompyuter ("MANİAC") insanlarla şahmat oynadı: Güclü şahmatçılar kompyuterə qalib gəlir, təcrübəsizlər isə cəmi 23 gedişdən sonra mütləq məğlub olurdular. Keçmiş SSRİ-də kompyuter şahmatının işlənib hazırlanması ilə ilk dəfə 1963-cü ildə maraqlanıblar. Keçmiş Sovetlər birliyində hazırlanan "Kaissa" kompyuteri 1980-ci ilə qədər amerikalıların hazırladıqları variantları üstələyirdi. Sonradan hesablayıcı maşınların istehsalında baş verən tənəzzül kompyuterdə yeni nəticələr qazanmağa imkan vermədi.



## Şahmat lövhəsində yaranan vəziyyətlərin ümumi sayı o qədər də çox deyil

Şahmatda ən böyük problem variantların çoxluğu hesab edilir. Bəs, görəsən, əslində necədir? Adi vəziyyətdə mümkün 40 gedişdən istifadə olunur. Cavab gedişləri də bu qədərdir. Deməli, cütlüklərin yarımgedişləri 1600, tam gedişləri 1600x1600=2,5 mln vəziyyət yaradır. Riyaziyyatçılar şahmat partiyalarının sayını 10-dan 120 dərəcəyə qədər olduğunu qeyd edirlər. Buna "Şennon sayı" deyilir. Şahmat lövhəsində yaranan vəziyyətlərin ümumi sayı o qədər də çox deyil. Ona görə ki, müxtəlif partiyalarda eyni vəziyyət təkrarlana bilir. Mütəxəssislərin fikrincə, hesablamalar zamanı şahmatda 1043 vəziyyət yaranır. Əgər bütün vəziyyətləri kompyuterə yerləşdirmək mümkün olsa, şahmat proqramı ideal bir şəkil alar. Yəni hər hansı bir partiyada qalib gəlmək mümkündürsə, kompyuter mütləq həmin variantı tapacaq. Lakin bütün vəziyyətləri informasiya daşıyıcısına yerləşdirmək mümkün deyil. Bunun üçün ayın fiziki ölçülərinə bərabər bir yer lazımdır. Kompyuterlər isə yalnız partiyalar zamanı gedişləri analiz edir, növbəti gedişləri hesablayır və yarana biləcək vəziyyətləri qiymətləndirir. Kompyuter nə qədər gedişi hesablaya bilər?

İlk modellər 1 saniyə ərzində 500 vəziyyət yarada bilərək gediş etməyi bacarırdı. Müqayisə üçün deyək ki, yenicə başlayan şahmatçı hər gediş üçün 3 dəqiqə sərf edir.

## Düşüncələr sonsuz, ömür isə qısa...

1958-ci ildə Pitsburq Universitetinin alimləri "Alfa-beta alqoritmi" adlı kompyuter proqramı hazırladılar. Bu proqram son nəticəyə təsir etməyəcək variantların əksəriyyətini kənara atmağa imkan verirdi. Qeyd etmək lazımdır ki, alfa - beta axtarışı və onun müxtəlif şaxələri müasir şahmat proqramının özəyini təşkil edir. Bu proqramın mahiyyəti belədir: birinci variant analiz edilir, əgər ikinci variant birincidən pisdirsə, o, kənara atılır. Çünki bütün hallarda birinci variant qəbul ediləcəkdir. "Alfa-Beta alqoritmi" imkan verirdi ki, kompyuter az vaxt sərf etməklə çoxlu gediş edə bilsin. Məhz bu proqramın tətbiqindən sonra kompyuterlər daha güclü şahmat oynamağa başladı. Lakin dünyanın ən güclü zəka sahibləri ilə qarşılaşmada kompyuterlər hələ də acizdir. Səmərəli metodların hazırlanmasında sovet riyaziyyatçıları Brundo və Arlazarovun rolu böyükdür. Aleksandr Brundo tərəfindən xüsusi alqoritm hazırlanıb. Bu, kompyuterə ayrı-ayrı vəziyyətlərdə daha yaxşı oynamaq imkanı yaradırdı.

Vladimir Arlazarov 1974-cü ildə şahmat proqramları hazırlayanlar arasında dünya çempionu adına layiq görülüb. O, "Kaissa" şahmat kompyuterinin yaradıcılarından biridir. Yuxarıda adı çəkilən alqoritmlər daha çox riyazi tapşırıqların əsasında yaradılırdı. Lakin mütəxəssislər aparıcı şahmatçıların təcrübəsinə əsaslanan və canlı insanların istifadə etdikləri prinsiplər əsasında qurulan kompyuter hazırlamaq istəyirdilər. Bu cür kompyuter daha sürətlə və "insan kimi" oynayacaqdı. Bu, heç də asan məsələ deyildi. Məşhur rus şahmatçısı Mixail Botvinnik uzun illər belə bir şahmat kompyuteri yaratmaq barədə düşünmüş, lakin bu işi sona çatdıra bilməmişdi.

## İntellekt müharibəsi və kölgədə qalan qələbə

Elm adamları 1 saniyə ərzində daha çox əməliyyat yerinə yetirə biləcək xüsusi şahmat kompyuterləri hazırlamağa başladılar. İlk belə kompyuter Bell Ken Tompsonun laboratoriyasında hazırlandı. Tompsonun kompyuteri Ümumdünya Şahmat Kompyuterlərinin turnirində qalib gəldi. Sonradan isə yeni yaradılmış "Cay X_MPs" öz gücünə görə Tompsonun kompyuterini üstələdi. 80-ci illərin sonlarında saniyədə minlərlə əməliyyat edən "Chip Test" və "Deep Thought" (DT) kompyuteri yarandı. DT o zamankı dünya çempionu Qarri Kasparovla keçirdiyi hər iki partiyada məğlub oldu. Əvəzində isə tanınmış qrossmeysterlərə qalib gəldi. Bu kompyuter EHM (Elektron Hesablayıcı Maşınlar) yaradıcılarını ciddi maraqlandırırdı. Onlar "Deep Blue" yaratdılar. Bu kompyuter dünyanın ən güclü qadın şahmatçısı hesab edilən macarıstanlı Yudit Polqara qalib gəldi. Eyni vaxtda keçirilən blits-turnirdə Kasparovla yarışan "Deep Blue" yalnız əlavə matçda dünya çempionuna təslim oldu. 1996-cı ildə "Deep Blue"nin Kasparovla ilk oyunu təşkil edildi və dünya çempionu kompyuterə 4:2 hesabı ilə qalib gəldi. Qeyd edək ki, elmin son nailiyyətlərindən olan bu kompyuter saniyədə 100 mln vəziyyəti hesablamağı bacarırdı. 1 ildən sonra Kasparovla "Deep Blue" arasında revanş oyunu keçirildi. Kompyuter şahmatçını 3,5:2,5 fərqi ilə məğlub edə bildi. O vaxt kompyuter vəziyyətləri qiymətləndirməyi və oyunu bu qiymətləndirmə əsasında qurmağı bacarmırdı. "Dəmir parçası"nın oyunu və qələbəsi yalnız texniki gücü hesabına başa gəlirdi.

## Superkompyuter adi insan üçün nəzərdə tutulmayıb

Onun inkişafı onlayn proqramların yaxşılaşdırılması sayəsində baş verir. Düzdür, hazırda güclü "beyin"ə malik olan kompyuterlər istehsal olunur. Lakin yuxarıda qeyd etdiyimiz kimi, adi insanlar onlardan istifadə etmək iqtidarında deyillər. Məsələn, Vladimir Kramnikin yarışdığı "Deep Fritz" (ikiprosessorlu "Compaq ProLiant DL 760") kompyuteri hər kəsin istifadə edə biləcəyi bir "dəmir parçası" deyil. Kramnik son nailiyyətlərdən olan bu kompyuterlərlə heç-heçə edə bilib - 4:4.

2003-cü ildə Harri Kasparov "Deep Junior" (prosessoru 1,9 QHs və operativ yaddaşı 3 Qb olan Pentium IV) kompyuteri ilə daha bir oyun keçirdi (qeyd edək ki, "Deep Junior" insansayağı oyun nümayiş etdirən, təşəbbüsü ələ almaq üçün hər şeyi "qurban verməyə" hazır olan kompyuterdir). Oyun "sülh"lə başa çatdı. Növbəti matçda Kasparov ölçüsü 3D olan virtual lövhədə gedişləri səsli komandalarla yerinə yetirdi. Bu oyunda da qalib müəyyənləşmədi.




## Endşpil bazası hər zaman yeni variantlarla gücləndirilir

Əlbəttə, insanların təcrübəsindən yararlanmamaq mümkün deyildi. Debüt bazanın yaradılması imkan verirdi ki, ilk 20-25 gedişin vəziyyəti nəzərə alınmasın, hazır olan, işlənmiş variantlardan istifadə edilsin. Burada kompyuterin "təcrübəsindən"də istifadə olundu. 80-ci illərin əvvəllərində Ken Tompson 4 və 5 fiqurla endşpil sonluqlu baza yaratmağa müvəffəq oldu. Endşpil bazası hər zaman yeni variantlarla gücləndirilir. Artıq 6-7 fiqurlu endşpillər mövcuddur. Endşpil qaydaları üzrə kompyuterlə mübarizə aparmaq çox çətindir. Çünki kompyuter proqramda olan səhvləri dərhal "görür", şahmatçı isə, təbii ki, mütləq səhvə yol verir. Bəzən qələbə üçün insana yüzlərlə dəqiq gediş lazım olur. Bu isə nadir hallarda mümkündür. Bəs debüt bazası ilə endşpilin birləşməsi və kompyuterin "başlamaq və qalib gəlmək" taktikası mümkündürmü? Qeyd edək ki, 1-ci fiqurun gücləndirilməsi ilə mümkün gedişlər də güclənmiş olur. Belə olduqda vaxtın və ehtiyatın çoxluğu tələb edilir. 7 fiqurlu endşpillər buna, qismən də olsa, imkan yaradır.

Müasir dövrümüzdə daha sürətli şahmat oynayırlar. Bu baxımdan şahmatçıların gedişləri hesablamaq üçün vaxtı qalmır. Bunun qarşısını almaq üçün kompyuterin zəif cəhətlərini axtarmağa başladılar. Kompyuterin oyunu nə ilə fərqlənir? İlk növbədə, bu dəmir parçası etibarlıdır. Onun proqramı alqoritmə əməl edir və heç bir saxtakarlığı yaxın buraxmır. Təbii ki, kompyuterin "məntiqi" insanın oyun düşüncələri ilə üst-üstə düşmür. Məsələn, partiyaların birində kompyuter atı vurmaqla vəziri götürmək və 5 gedişə mat etmək "fikrinə düşüb". Ancaq əksər şahmatçılar bu variantdan istifadə etməzdilər. Qeyd edək ki, kompyuter məlumat bazasına istinad edir. Standarta uyğun olmayan və ya yeni tapılmış gedişlərin kompyuter üçün heç bir fərqi yoxdur. 5-6, əsasən də 7 fiqurlu endşpil proqramında kompyuter səhvsiz oynayır. Fiqurların çoxluğu isə şahmatçıya üstünlük verir. Vəziyyətləri dərindən araşdıran kompyuter onları "saf-çürük" edir, sonra ən uyğun variantı seçir. Bəs, dəyərləndirmə necə aparılır? Kompyuter daha çox piyadaların vəziyyətini nəzərə alır, oyunun mərkəzini və şahın ətrafını nəzarətdə saxlayır. Proqram əsasında işləyən kompyuter vəziyyətə "ciddi tapşırıq" əsasında nəzarət edir. Şahmatçının əsas "silah"ı isə düşünmə tərzinin olmasıdır.

*(ardı var)*

***Hazırladı:***
***Anar ƏHMƏDOV***

# 100 ilin zirvəsində

*Adi günlərdən biridir. Metro stansiyasından çıxaraq əzəmətli Bakı Dövlət Universitetinin Gəncənin qoşa qala qapılarını xatırladan darvazasına doğru addımlayıram. Dörd-beş mühafizə əməkdaşı içəri girənlərdən vəsiqə tələb edir: "Vəsiqələri göstərin", "Hər kəs tələbə biletini təqdim etsin"...Mən də tələbə biletimi orta yaşlı mühafizə əməkdaşına göstərirəm. Təbəssümlə "Artıq səni tanıyırıq, keç", deyir. Əlbəttə, mən də onları tanıyıram. Hər halda dörd ildir ki, bir-birimizi görürük. Dərsimin 13:50-də başlamasına baxmayaraq, xeyli tez gəlmişəm. Telefonumdakı elektron saata baxıram, hələ saat yarım vaxtım var. Universitetin həyətində gəzməyə başlayıram. Uzaqdan şux qaməti ilə mənə doğru gələn mülki müdafiə və həyat təhlükəsizliyi kafedrasının müəllimi Vasif Piriyevi görürəm. Görüşürük. Adəti üzrə "Cavan oğlan, necəsən?" deyə soruşur. İllər keçsə də, müəllimlərimiz heç dəyişməyiblər. Eyni səmimilik, eyni sadəlik...*

Birinci və ikinci kursda oxuyanda dərslərdən sonra həmişə universitetin həyətindəki "Pepsi" adlı kafeyə gedərdik. Burada səmimi söhbətlər edər, bir çayniki iyirmi qəpiyə olan çayla sanki yorğunluğumuzu çıxarardıq. Ancaq, əlbəttə, əsas məsələ çay yox, məhz elə həmin söhbətlər idi. Sonradan buranın adı dəyişildi, ardınca isə kafe ləğv edildi. İndi həmin ərazidən keçəndə istər-istəməz köhnə xatirələr yadıma düşdü və xeyli mütəəssir oldum. Təkcə mənim üçün yox, bütün tələbələr üçün ən doğma məkanlardan biri idi, yəqin ki, bu kafe.

Universitetin əsas tədris binasında məşhur bir tələbə yeməkxanası var. Amma, vallah, daha çox restorana oxşayır. Kifayət qədər böyükdür. Bir çox hallarda burada yer tapmaq da müşkül məsələyə çevrilir. Həmişəki kimi yenə də içəridə xeyli tələbə var. Düz beş dəqiqəlik axtarışdan sonra, nəhayət ki, boş bir masa tapa bilirəm və bir stəkan çay alıb otururam. Adətən, ad günlərini burada keçirərdik. O qədər çox xərcimiz də çıxmazdı. 10-15 stəkan çay, bir də balaca tort. Axı tələbənin, necə deyərlər, gücü ancaq aldığı təqaüdə çatır. Masa kasıb olsa da, özümüz o qədər bəxtiyar idik ki. Çünki qayğısızdıq. Yeganə problemimiz ilk dərsə gecikməmək təlaşı, bir də bəzən seminarlara yaxşı, daha doğrusu, müəllimin tələb etdiyi səviyyədə cavab verməmək qorxusu idi. Bu düşüncələrlə çayımı içərkən yan masadan bir nəfər tələbə yaxınlaşdı. Hiss olunur ki, birinci kursdur: "Bağışlayın, biz burda ad günü keçirəcəyik. Stul çatışmır. Sizin masadan götürə bilərik?". Təbəssümlə başımı tərpədərək razılığımı bildirirəm. İki-üç dəqiqədən sonra həmin tələbə əlində plastik boşqaba qoyulmuş bir dilim tortla gəlir: "Buyurun, bu da sizin", - deyir. Nədənsə, bu tələbə yeməkxanasında kəsilən tortlar həmişə dadlı olur. Tortu yedikdən sonra buradan çıxıram. Nədənsə mənə elə gəlir ki, bu böyük yeməkxanada tək oturmaq elə də yaxşı deyil.

Universitetimizin muzeyinə gedirəm. İlk dəfə birinci kursda oxuyanda üç tələbə yoldaşımla birlikdə gəlmişdim bura. Bu, ikinci gəlişimdir və yəqin ki, bəlkə də sonuncudur. Doğrudur, muzey o qədər də böyük deyil. Lakin burada təkcə universitetin yox, eləcə də, bütünlüklə Azərbaycanın tarixini özündə əks etdirən eksponatlar var.

Ardınca kitabxanalara yollanıram. Vaxtı ilə o qədər dərslik və dərs vəsaiti götürmüşük ki bu kitabxanalardan. Heç vaxt əliboş qayıtmamışam. Bəzən mənə elə gəlir ki, burada axtardığın bütün kitablar var. Kimi kitabları götürüb evdə oxuyur, kimi də ali məktəbin oxu zalında. "Oxu zalı" demişkən, burada da cəmi bir dəfə olmuşam indiyə kimi. Qrup yoldaşımla birgə gedib mülki müdafiə fənninin fərdi işlərini yazırdıq. Nə az, nə çox, 15 səhifə yazmışdıq. Çox yorulmuşduq. İndi daha çox-40, 50 səhifə yazmağa razıyam. Bircə qoynuna sığındığım bu qocaman universitetdən ayrılmaq vaxtı çatmayaydı...

Saatıma baxıram. Artıq dərsin başlamasına az qalıb. Ləngimədən təhsil aldığım fakültənin yerləşdiyi tədris binasına tərəf irəliləyirəm. Qəfildən bir səs eşidirəm: "Salam, necəsən, bala?". Üzümü çevirirəm ki, ilk müəllimlərimizdən biri olan, filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Yeganə İsmayılovadır. Onu görüb sevinirəm. Dərslərimlə maraqlanır. Hər şeyin qaydasında olduğunu, artıq məzun olmağa hazırlaşdığımı deyirəm. Xeyir-dua verir və ayrılırıq. Həqiqətən, ötən illər ərzində o, ən yaddaqalan müəllimlərimizdən biri idi. İndi təsadüfən onu görməyim birinci kurs xatirələrimi yadıma salır. İlk vaxtlar bu böyük universitet həyəti, işıqlı dəhlizlər bizə necə də yad idi... Sürətlə oxunulan mühazirələrə, on ballıq qiymətləndirmə sisteminə öyrəşə bilmirdik. Orta məktəb üçün darıxırdıq. Lakin indi mənə elə gəlir ki, 100 ildir buradayam. Bəlkə də, gəncliyimin və bütövlükdə ömrümün ən gözəl xatirələri bu ali təhsil müəssisəsinə bağlıdır. Vaxt necə gəldi, necə keçdi bilmədim. Sanki dünən qəbul imtahanı verirdim. İndi isə artıq məzun olmaq ərəfəsindəyəm. O qədər hadisə olub ki, ötən illər ərzində. Yazsam, kitab olar. Bəlkə də, nə vaxtsa yazaram. Kitabın adını da elə "Mənim universitetim" qoyaram. Bu düşüncələrlə binaya daxil olur, gənc mühafizə işçisinə "Sabahınız xeyir" deyir və pillələrlə üçüncü mərtəbəyə qalxıram. Budur, göy fonda "Jurnalistika" yazılan banerlə üzbəüzəm. "Jurnalistika"- 11 hərfli bu söz həyatımın mərkəzindədir. Yəqin ki, həmişə də belə olacaq. Ötən illər ərzində müəllimlərim-dekanımız Vüqar Ziferoğlu, professor Cahangir Məmmədli, dosentlər Zaur Babayev, Rəhilə Kəsəmənli, Sima Rəhimova və digərlərindən öyrəndiklərim bunu deməyə əsas verir. Həm də ən böyük uğurlarım, ən xoş xatirələrim seçdiyim ixtisas, nəzəriyyəsinə və təcrübəsinə yiyələndiyim bu peşə ilə bağlıdır. Dəhlizdə dayanıb zəngin vurulmasını gözləyəndə fakültəmizin ən yaşlı və özünün səmimiliyi ilə fərqlənən müəllimlərindən, dosent Mahmud Mahmudovu görürəm. Zarafatla "Ay Kənan, sən məndən çox fakültədə olursan. Ne tez gəlmisən"- deyir. Qeyri-müəyyən cavab verirəm: "Çünki getməyə az qalıb..."

Dərsin başlanmasına işarə edən zəng vurulan kimi auditoriyaya daxil oluram. Hələ birinci kursdan tanıdığım professor Allahverdi müəllim-Allahverdi Məmmədlinin dərsidir. Dərs həmişəki kimi maraqlı, müzakirələrlə zəngin oldu. Ardınca da digər fənnin-online medianın seminarı başlayır. Dərs bitəndən sonra fakültəni tərk etməyə, evə getməyə hazırlaşıram. Havanı müəyyənləşdirmək üçün auditoriyanın pəncərəsindən bayıra boylananda yenə keçmiş müəllimlərimizdən birini - filoloq, professor Ramiz Əskəri görürəm. Kiminləsə qızğın müzakirələr aparır. Bəlkə də, elə Türk ədəbiyyatından danışır. Axı o, görkəmli türkoloqdur.

Qaranlıq dəhliz, demək olar ki, səssizdir. Sadəcə açılıb- bağlanan qapıların cırıltısı səssizliyi pozur. Tələsmədən aşağı düşürəm. Həyətə çıxanda bir anlıq çevrilib arxaya baxıram. Universitet binası o qədər nəhəng görünür ki. Sanki məni kölgəsində saxlayır, müdafiə edir. İri hərflərlə yazılan "Bakı Dövlət Universiteti" sözlərini dəfələrlə oxuyuram. Qeyri-iradi gülümsəyir və öz- özümə pıçıldayıram: "Universitetimin 100 yaşı tamam olur. Mən isə məzun olmağa, bu doğma məkanla vidalaşmağa hazırlaşıram." Bilmirəm, onun bir əsrlik yubileyinə sevinim, ya daha BDU ilə yolumuz kəsişməyəcəyinə görə kədərlənim. Bir anlıq çox möhkəm külək əsdi və mənə elə gəldi ki, qarşısında dayandığım bina canlı imiş kimi, hərəkət edərək məni küləkdən qorudu. Geridə çətin, enişli-yoxuşlu və fərəhli bir 100 illik tarix qoyanda belə olur, yəqin. Daş-divar belə, hərəkətlənir, hətta, bəlkə də, danışır, eşidir. Kaş mənim ona olan ehtiramımı, sevgimi də hiss edə. Bir də ki, axı adi daş-divar deyil. Neçə tarixi hadisənin, o cümlədən Azərbaycanın müstəqillik qazanmasının şahididir. Azərbaycan Xalq Cümhuriyyətinin mirasıdır. Müxtəlif zamanlarda xalqımıza, millətimizə Məhəmməd Əmin Rəsulzadə kimi yüzlərlə şəxsiyyət bəxş edən təhsil müəssisəsidir. Yəni bütöv bir Azərbaycan, bütün bir vətəndir Bakı Dövlət Universiteti. Hər daşında, həyətindəki hər ağacında, hər fakültəsində hiss olunur bu. Ola bilsin, elə bu səbəbdən də mənə belə əziz, doğma gəlir. Allah bu təhsil ocağının əsasını qoyanlara qəni- qəni rəhmət etsin. O qədər böyük bir xəzinə bəxş ediblər ki, Azərbaycana, hətta bütün Qafqaza və bəlkə də, dünyaya. Sevindiricidir ki, buranın məzunları arasında ümummilli lider Heydər Əliyev kimi dahi şəxsiyyət, yüzlərlə, minlərlə görkəmli alim var.



Müsəlman Şərqində ilk dünyəvi və müasir ali təhsil ocağı olan, tarixin ən müxtəlif mərhələlərində elmi və ictimai düşüncənin lokomotivi kimi çıxış edən BDU 100 illik yubileyi ərəfəsindədir.

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev bu ali təhsil ocağının cəmiyyət həyatındakı yerini və müstəsna rolunu yüksək dəyərləndirərək Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda Bakı Dövlət Universitetinin müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçdiyi qeyd olunub. Daim azərbaycançılıq məfkurəsinə sadiqlik nümayiş etdirərək ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların son texnologiyaların tətbiqi ilə müasir standartlara uyğun aparılmasında və ümumən milli özünüdərk prosesinin sürətləndirilməsindəki böyük xidmətləri xüsusi vurğulanıb.

BDU tarixən vətənpərvər ziyalıların fədakar əməyi sayəsində yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülünə böyük töhfələr verib. Sərəncamda ali təhsilimizin flaqmanı kimi müasir dövrdə BDU-nun qarşısında duran missiya, inkişaf hədəfləri də öz əksini tapıb.

BDU-da təhsil alan tələbələrin sayının ildən-ilə artması da birbaşa olaraq onun beynəlxalq aləmdə əldə etdiyi uğurlarla bağlıdır.

Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin həmyaşıdı, böyük tarixi şəxsiyyətlərin bizdən əvvəlkilərə, bizə və gələcək nəsillərə qoyub getdikləri ən böyük mirasdır. İndi burada təhsil alan gənclər, o cümlədən xarici tələbələr Azərbaycan Xalq Cümhuriyyətinin misilsiz xəzinəsi ilə tanış olduqlarına görə sevinirlər.

Bakı Dövlət Universiteti ötən illər ərzində çox çətin, lakin şərəfli bir yol keçib və nəhayət, zirvəyə çatıb-100 ilin zirvəsinə! Elə bir zirvə ki, buradan Azərbaycanın 1919-cu ildən bu günə kimi olan tarixi açıq- aydın görünür. Elə bir zirvə ki, fərqli vaxtlarda bu müqəddəs təhsil ocağı ilə yolu kəsişən hər kəs-istər müəllimlər, istərsə də tələbələr buranın məzunu olmuş ümumilli lider Heydər Əliyevin "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" sözlərini fərəhlə yada salaraq qürur duyurlar.

**_Kənan Novruzov,_**
**_"Olimpiya dünyası" qəzetinin əməkdaşı_**

*Bakı Dövlət Universitetinin "100 ilin zirvəsində" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.*

## Formula 1

### "Williams"Qran-prilərin sayının azalmasının tərəfdarıdır

"Williams" komandası rəhbərinin müavini Kler Uilyams Formula 1 çempionatının təqviminin 22 mərhələyədək gözlənilən genişləndirilməsinə qarşı çıxış edib. Bundan başqa, o, Qran-prilərin sayının mövsüm ərzində azaldılmasını daha münasib hesab edir.

K.Uilyams deyib: "Fikrimcə, bizim limit müəyyən etməyimiz vacibdir. Bu limit ildə 21 yürüşü keçməməlidir. Şəxsən mən istərdim ki, Qran-prilərin sayı aşağı salınsın. Təkliflər artdıqca tələbat aşağı düşür. Bu, iqtisadiyyatın əsaslarındandır. Avtomobil idmanında da məhz belədir. Bundan başqa mərhələlərin həddən artıq çoxluğu çempionatı dəyərdən salır.

Həmçinin əməkdaşlar barədə də düşünmək lazımdır. Onların yüklənməsi daim arta bilməz. İri komandalar ikinci tərkibə də heyət toplaya bilərlər. Lakin bizim kimi kiçik komandalara bunun aidiyyəti yoxdur. 21-dən çox mərhələ ideyası "Williams" kimi komandalara uyğun gəlmir".

* * *

"Liberty Media" iyul ayında Formula 1 Böyük Britaniya Qran-Prisinin keçirildiyi Silverstoun trassının sahibləri ilə kontraktın 2024-cü ilədək uzadıldığını elan edib.

Təşkilatçılar 2020-ci ildə Formula 1 Böyük Britaniya Qran-Prisinin keçiriləcəyi tarixi də açıqlayıblar. Bu mərhələ həmin il iyulun 17-dən 19-dək təşkil olunacaq. Artıq yürüşlərin biletləri satışa çıxarılıb və Silverstounda ümid edirlər ki, uik-end günlərində tribunalarda anşlaq olacaq.

Silverstoun trasının idarəçi direktoru Stüart Prinql deyib: "Biz növbəti il keçiriləcək Formula 1 Böyük Britaniya Qran-Prisinə biletlərin satışının başlanmasından məmnunuq. Formula 1-in 70 illik yubileyinə həsr olunacaq bayram şənliklərimiz uikendin daha bir parlaq hadisəsi olacaq. Böyük Britaniyanın ən əlamətdar idman tədbirlərindən birini yaxşı yerlərdən izləmək üçün azarkeşləri biletləri mümkün qədər tez əldə etməyə dəvət edirəm".

* * *

Formula 1-in mətbuat xidməti 2021-ci ilin aerodinamik borulu avtomobilinin ilk fotolarını yayıb.

Yeni bolidin "Zauber" aerodinamik borusunda ilk sınaqları cari ilin iyul ayında, Almaniya Qran-Prisindən əvvəl təşkil olunub. Testləşdirmələr tam məxfi şəraitdə keçirilib.

Hələ yanvar ayında keçirilən ilk sınaqlarda bolidin 60 faizi 2018-ci ilin maşınının hissələrindən ibarət idi. İkinci testlər mart ayında yerinə yetirilib.

2021-ci ilin bolidinin işlənib hazırlanmasında ötmə əməliyyatı üçün şəraitin yaradılmasına xüsusi diqqət ayrılıb. Bununla bağlı ideya müəllifləri bolidlərin bir-birinin ardınca getməsinə şərait yaratmaqdan ötrü avtomobildən sonra qalan "çirkli" aerodinamik axının aşağı salınmasına çalışırlar.

* * *

Fransalı pilot Esteban Okon bu yaxınlarda "Renault" komandası ilə ikiillik müqavilə bağlaya bilər.

Əgər razılaşma baş tutarsa, o zaman Okon Niko Hülkenberqi əvəz edəcək və Daniel Rikkardonun yeni ortağı olacaq.

Okon ilə "Renault" komandası arasında saziş imzalanarsa, o halda düşünmək olar ki, Esteban artıq "Mercedes"in dəstəklənməsi proqramına daxil deyil. Valtteri Bottas isə ən azı bir mövsüm alman komandasında öz mövqeyini qoruyacaq. Daha əvvəl



"Mercedes"in rəhbəri Toto Volf təsdiqləmişdi ki, komandadakı yerə yalnız Okon və Bottas namizəddirlər.

Hülkenbergə gəlincə, alman üçün karyerasını davam etdirməyə "Haas" komandası münasib yerdir. Orada Romen Qrojanın yeri təhlükə ilə üzləşə bilər. Bundan əvvəl Niko özü "Renault"da qala biləcəyini ehtimal edirdi.

# FUTBOL

## Azərbaycan Premyer Liqası: “Səbail”dən maksimum nəticə



Avqustun 24-də futbol üzrə Azərbaycan Premyer Liqasının ikinci turuna start verilib. Turun açılış görüşü “Kapital Bank Arena” stadionunda oynanılıb. “Sumqayıt” klubu “Səbail” komandasını qəbul edib. Görüş paytaxt təmsilçisinin 3:0 hesablı



qələbəsi ilə başa çatıb. Baş məşqçi Aftandil Hacıyevin yetirmələrinin heyətində Ağabala Ramazanov (10, 69) və Şəhriyar Rəhimov (51) fərqləniblər.

“Bank Respublika Arena”da keçirilən turun növbəti oyununda “Sabah” və “Keşlə” komandaları üz-üzə gəlib. Səbuhi Bayramovun idarə etdiyi qarşılaşma qonaq komandanın qələbəsi ilə yekunlaşıb. Yeganə qolu ilk hissənin uzatma dəqiqəsində Vüsal İsgəndərli vurub. Matçın 73-cü dəqiqəsində Sezar Meza Kolli “Keşlə”ni azlıqda qoysada, “Sabah” say üstünlüyündən yararlana bilməyib. Bu nəticədən sonra “Keşlə” ilk qələbəsini qazanıb.

Çempionatın ikinci turunun növbəti oyununda son çempion “Qarabağ” doğma azarkeşlər önündə “Qəbələ”ni qəbul edib. “Azersun Arena”da keçirilən qarşılaşma Ağdam təmsilçisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Görüşün 61-ci dəqiqəsində Riçard Almeyda penaltini dəqiq yerinə yetirib. Matçın 63-cü dəqiqəsində isə Maqaye Qeye fərqi iki topa çatdırıb. Oyunun 79-cu dəqiqəsində Abdullah Zubir qonaq komandanı növbəti dəfə məyus edib.

Bu nəticələrdən sonra “Səbail” və “Qarabağ” komandaları 6 xalla turnir cədvəlinin birinci-ikinci pilləl追rini bölüşürlər.

## Yan xətt hakimləri robotlarla əvəz olunacaq



FİFA rəhbərliyi gələcəkdə yan xətt hakimlərinin əvəzinə robotlardan istifadə etmək barədə düşünür. Bu haqda Britaniyanın “Mirror” nəşri məlumat yayıb. “FİFA-nın departamenti artıq bununla bağlı müvafiq araşdırmalar aparır. Robotlar laysmanları əvəz edə bilərmi? Bunun gələcəkdə həyata keçməsi mümkündür” - deyə FİFA-ya yaxın mənbə bildirib. Alim Yan Pirson isə deyib ki, 2030-cu ilə kimi Premyer Liqa, La Liqa və A seriyasında robot-hakimdən istifadə ediləbilər.

Qeyd edək ki, son illər futbolda müasir texnologiyaların tətbiqi genişlənməyə başlayır. İlk belə addım qolun qapı xəttini keçib-keçmədiyini müəyyənləşdirən kompüter funksiyası olub. 2018-ci ildən başlayaraq isə VAR sistemi tətbiq olunub. Bunun sayəsində hakimlər epizodlara təkrar baxa və bundan sonra qəti qərar verə bilərlər.

## Firon Britaniyanı tərk etmək istəyir

“Liverpul”un misirli hücumçusu Məhəmməd Salah klubu tərk etmək fikrindədir. Buna səbəb Salahın baş məşqçi Yürgen Kloppla soyuq münasibətidir. Salah bildirib ki, müqavilə müddəti başa çatdıqdan sonra o, İngiltərəni tərk edəcək. “Klopp yaxşı məşqçidir. O, uzun illərdən sonra “Liverpul”u bütün dünyada yenidən məşhurlaşdırdı. UEFA Çempionlar Liqası kimi nüfuzlu yarışın qalibi etdi. Artıq o, bu uğurdan sonra özünü daha təkəbbürlü aparır. Futbolçularla istədiyi kimi davranır. Bu isə mənim xoşuma gəlmir. Fürsət düşsə, “Liverpul”dakı karyeramı yekunlaşdıracağam. Öz gücümü digər ölkələrin aparıcı klublarında sınamaq istəyirəm”, - deyə Məhəmməd Salah bildirib.



Qeyd edək ki, yaranmış bu vəziyyətdən istifadə edərək, Madrid “Real”ı misirli futbolçuya müqavilə təklif edib. İspaniya təmsilçisi Salahı ötən mövsüm “Yuventus”a transfer olunmuş Kristiano Ronaldunun mövqeyini doldurmaq üçün real namizəd kimi görür.

## Transfer xəbərləri




### İspaniya

“Qalatasaray” bu yay transfer etdiyi Valentine Ozornvaforu icarəyə verib. Superliqa təmsilçisi nigeriyalı müdafiəçini İspaniya Sequndasında çıxış edən “Almeriya”ya göndərib. 20 yaşlı müdafiəçi 2019-20 mövsümünü İspaniyada keçirəcək.

Qeyd edək ki, “Qalatasaray” Ozornvaforu bu yay Nigeriyanın “Enyimba” klubundan 300 min avroya transfer edib.

* * *

Madrid “Real”ı yeni transferi yaponiyalı futbolçusu Takefusa Kubonu icarəyə göndərib.



Madrid təmsilçisi 18 yaşlı yarımmüdafiəçini digər La Liqa iştirakçısı “Malyorka”ya 1 illiyə icarəyə verib.

Qeyd edək ki, “Real” yapon oyunçunu bu yay “Tokio”dan transfer edib.

### Almaniya

“Bavariya” növbəti transferini həyata keçirmək üzrədir.

Münhen klubu Mark Rokanın transferi üçün “Espanyol”la razılığa gəlib. 22 yaşlı yarımmüdafiəçi ilə 5 illik müqavilə imzalanacaq. “Bavariya” bu transferə görə İspaniya təmsilçisinə 40 milyon avro təzminat ödəyəcək.

Qeyd edək ki, M.Roka ötən mövsüm La Liqada 35 matçda oynayıb.

* * *

“Arsenal”dan ayrılan Stefan Lixtştaynerin yeni klubu məlum olub. 35 yaşlı müdafiəçi Almaniyanın “Auqsburq” klubuna keçib. Bundesliqa təmsilçisinin rəsmi saytı isveçrəli futbolçu ilə 1 illik müqavilə imzalandığını açıqlayıb. Qeyd edək ki, karyerası ərzində “Latsio”, “Yuventus” və “Arsenal” kimi klublarda çıxış edən Lixtştayner “Auqsburq”a azad agent kimi keçib.

### İngiltərə

“Liverpul” futbolçusu Aleks Oksleyd-Çemberlenlə müqavilənin müddətini uzadıb. 26 yaşlı yarımmüdafiəçi ilə uzunmüddətli müqavilə imzalanıb. Qeyd edək ki, Oksleyd-Çemberlen 2017-ci ildən “Liverpul”da oynayır.

### İtaliya

“Milan” İvan Striniçlə yolları ayırıb. “Sky Sport Italia”nın yaydığı xəbərə görə, “qırmızı-qaralar” xorvatiyalı müdafiəçinin müqaviləsinə qarşılıqlı razılaşma əsasında xitam veriblər.

Qeyd edək ki, ötən yay “Sampdoriya”dan “Milan”a keçən Striniçlə 2 illik müqavilə imzalamışdı. Xorvatiya millisinin üzvü ürəyindəki problemlərə görə “Milan”da heç bir rəsmi oyuna çıxmayıb.

* * *

PSV-nin hücumçusu İrvin Losano karyerasını “Napoli”də davam etdirəcək. Bu haqda İtaliya klubunun saytı məlumat yayıb. Meksika millisinin futbolçusuna görə 40 milyon avro təzminat ödənilib. Losano ilə 2024-cü ilin iyununa qədər - 5 illik müqavilə imzalanıb.

Qeyd edək ki, ötən mövsüm Losano PSV-nin heyətində Hollandiya çempionatında 30 matçda meydana çıxıb, 17 qol vurub, 11 qolun isə ötürməsini edib.

* * *

“Çelsi”nin futbolçusu Davide Zappakostanın “Roma”ya keçidi rəsmiləşib. “Canavarlar” 27 yaşlı italiyalı müdafiəçini 6 aylıq icarəyə götürüblər. Gələn ilin yanvar ayında “Roma” müqavilənin müddətini uzatmaq şansına da malikdir. Davide yeni komandasında 2 nömrəli formanı geyinəcək.




Qeyd edək ki, İtaliya yığmasının da şərəfini qoruyan Zappakosta, 2017-ci ildə “Torino”dan “Çelsi”yə transfer olunub. O, daha öncə “Atalanta” və “Avellino” klublarında da çıxış edib.

### Fransa

“Monako” heyətini yeni futbolçu ilə gücləndirib. Fransa Liqa 1 təmsilçisi İngiltərənin “Lester Siti” klubundan ayrılan Adrien Silvanı heyətinə cəlb edib. Silva 2019-20 mövsümünü icarə əsasında “Monako”da keçirəcək. Məlumat üçün bildirək ki, portuqaliyalı yarımmüdafiəçi ötən mövsümdə də icarə əsasında məhz “Monako”da çıxış etmişdi.

* * *

“Monako” “Lester”in hücumçusu İslam Slimanini bir mövsümlük icarəyə götürüb. Klub gələn yay 31 yaşlı oyunçunun təzminat qiymətini ödəyərək onu birdəfəlik ala bilər. Qeyd edək ki, İ.Slimani ötən mövsüm icarə əsasında “Fənərbağça”da oynayıb.

* * *

“Bavariya”nın futbolçusu Renatu Sanşeş yeni mövsümdə “Lill”də çıxış edəcək. 22 yaşlı yarımmüdafiəçi ilə 4 illik müqavilə imzalanıb. “L’Equipe” nəşri bu transferdən




“Bavariya”nın 20 milyon avro qazanacağını yazıb.

Qeyd edək ki, Renato Sanşes ötən mövsüm Bundesliqada 17 matçda oynayıb, 1 qol vurub, 1 qolun ötürməsini verib.

* * *

Nikolas İsimat-Miri “Beşiktaş”ı tərk edib. 27 yaşlı müdafiəçi Fransanın “Tuluza” klubuna keçib. Klubun saytı futbolçu ilə 1 illik icarə müqaviləsi imzalandığını açıqlayıb.

“Tuluza” mövsümün sonunda klublar arasında razılaşdırılmış məbləği ödəyərək, futbolçunun transfer hüquqlarına sahib ola bilər.

Qeyd edək ki, fransalı müdafiəçi bu ilin yanvarında PSV-dən “Beşiktşa”a keçib. O, Superliqada 14 oyun keçirib.

### Türkiyə

“Başakşəhər”dən ayrılan Emmanuel Adebayor karyerasını “Kayserispor”da davam etdirəcək. Türkiyə mətbuatı onun müqavilə bağlamaq üçün Kayseriyə getdiyini yazıb. Təcrübəli forvardla yaxın günlərdə müqavilə bağlanacağı bildirilir.

Qeyd edək ki, 2017-ci ildən “Başakşəhər”də oynayan Adebayor Türkiyə Superliqasında 60 oyuna 24 qol vurub. Toqo millisinin üzvü “Mets”, “Monako”, “Arsenal”, “Real”, “Tottenhem”, “Kristal Pelas” kimi klublarda oynayıb.

* * *

“Beşiktaş” “Tottenhem”in oyunçusu Corc-Kevin Nkudunu transfer edib. “Qara qartal” fransalı yarım-



müdafiəçi ilə 4 illik müqavilə imzalayıb. Qeyd edək ki, 24 yaşlı hücumçu bundan əvvəl “Nants” “Marsel” “Tottenhem” “Monako” “Bernli” kimi klubların idman şərəfini qoruyub.

* * *

“Qalatasaray” futbolçusu Kostas Mitroğlu ilə yolları ayırıb.

Yunanıstanlı hücumçu PSV-yə icarəyə göndərilib. Hollandiya təmsilçisinin “Cim-Bom”a icarə haqqı olaraq 1 milyon 250 min avro təzminat ödəyəcəyi bildirilib. “Qalatasaray”ın da K.Mitroğluna 1 milyon 950 min avro verəcəyi bildirilib.

Qeyd edək ki, “Marsel”ə məxsus olan 31 yaşlı oyunçunun İstanbul klubu ilə 2020-ci ilin mayına kimi icarə müqaviləsi var idi.

# Dünya idmanı





## Tennisdən sonra piano

“Böyük dəbilqə” turnirinin 20 qat qalibi Roje Federer karyerasını bitirdikdən sonra hansı sahə ilə məşğul olacağını müəyyənləşdirib. Tennis dünyasının aparıcı simalarından olan Roje bildirib ki, o, gələcəkdə musiqiçi olmaq istəyir. “İstəyirəm piano ifaçısı kimi özümü sınayım. Mən musiqini sevirəm. Dünya musiqisinin heyranıyam. İstəyirəm ki, piano çalmağı öyrənim və həmin pyesləri ifa edim. Roje Federeri sevənləri bir də pianoçu kimi görsünlər. Artıq bu barədə qərarımı vermişəm”, - deyə isveçrəli tennisçi bildirib.

## “Yanğın bizim ağ ciyərlərimizi məhv edir”





Formula 1 üzrə beşqat dünya çempionu Luis Hemilton Amazon meşələrində baş vermiş yanğına görə öz narahatlığını bildirib. “Mersedes”in pilotu bu barədə özünün rəsmi “instaqram” səhifəsində fikirlərini bildirib. “Dünyanın necə məhv olduğunu görmək dəhşətli bir haldır. Amazon meşələri dünyanın ağ ciyəridir. Yanğın bizim ağ ciyərlərimizi məhv edir. Bu vaxta qədər Amazon meşələri belə bir sürətlə məhv olmamışdı. Alimlərin fikrincə, dünyada 20 faiz oksigeni Amazon meşələri biz canlılara bəxş edir. Bilirsiniz, bu nə deməkdir? Hər gün, hər dəqiqə, böyük futbol stadionu həcmində ərazi məhv olur. Dünya əhalisi bu barədə ciddi düşünməlidir. Heç birimiz köməyimizi əsirgəməli deyilik. Şəxsən mən bunun üçün istənilən məbləğdə vəsait xərcləməyə hazıram”, - deyə Luis Hemilton vurğulayıb.

## Konor Makqreqor əsas rəqiblərini açıqladı

İrlandiyalı MMA döyüşçüsü, keçmiş UFC çempionu Konor Makqreqor yenidən yarışlara qayıtmaq fikrindədir. O, ESPN telekanalına verdiyi müsahibədə bildirib ki, sol əlindəki sınıqlar bərpa olduqdan sonra UFC-də döyüşlərə başlayacaq. İrlandiyalı idmançı, əvvəlcə, Castin Hayci ilə qarşılaşmaq fikrindədir. “Mən hazırda döyüşlərə fasilə vermişəm. Bu da əlimdəki zədələrlə bağlıdır. Tezliklə siz Konor Makqreqoru döyüş meydanlarında görəcəksiniz. Bu qayıdışımla bütün rəqiblərimi xəbərdar edirəm. Mən gəlirəm. Əsas rəqiblərim Həbib Nurməhəmmədov, Neyt Dias, Dastin Poarye, Joze Aldu və Maks Holleuey olacaq. Bunları məğlub etdikdən sonra Toni Ferqüson, Frenki Edqar və Xorxe Masvidala da növbə çatacaq”, - deyə keçmiş UFC çempionu bildirib.



**Şaquli:**

3. 2020-ci ildə Olimpiya Oyunlarına ev sahibliyi edəcək şəhər
4. İdman gimnastikasında növ
7. Cərimə zərbəsi
9. Fransada şəhər
12. Bütün dünya çempionatlarında iştirak edən yeganə yığma komanda
13. İngiltərədə peşəkar liqa təmsilçisi
14. İdmanın və idmançıların düşməni
15. Komanda idman növlərində sərbəst mövqe
17. Formula yarışların bolidlərin düzülüşü
18. Olimpiya idman növü
19. “Ehramlar” ölkəsi
20. Solaxay tennisçi
23. Veteran futbolçumuz
24. “Atletiko” və “Real” bu şəhəri təmsil edir
25. “Çelsi”dən “Roma”ya transfer olunan futbolçu

**Üfüqi:**

1. Vatikanda futbol klubu
2. Avstriya bundesliqasının təmsilçisi
5. Erik Lamelanın çıxış etdiyi komanda
6. Şimali Amerikanı əhatə edən futbol təşkilatı
8. Hollandiyada klub və şəhər
10. Dörd ildən bir keçirilən böyük idman tədbiri
11. Argentina millisi belə adlanır
16. “Selta Viqo”nun futbolçusu
21. Bu klub “Cüzeppe Miatsa”da oynayır
22. Millimizin legioneri
26. “Roma”nın kapitanı
27. Fransa əsilli, əlcəzairli baş məşqçi
28. İkiçarxlı minik vasitəsi


olimpnews.az - sizin saytınız





Dortmund “Borussiya”sının yarımmüdafiəçisi Aksel Vitsel Asiyadan Avropaya qayıdışının səbəbini açıqlayıb. Çinin “Tyanzin Zuyanzuyan” klubunu tərk edib, 18 milyon avroluq

## “Mənim üçün əsas qızımın sağlamlığıdır”



müqavilədən imtina edən belçikalı deyib: “Mənim qızımın bağırsağında ciddi xəstəlik qeydə alınıb. Çində olduğum vaxtı yerli xəstəxanalara müraciət etdim. Mənə bildirdilər ki, belə bir xəstəliyin müalicəsi üçün yaşadığım rayonda lazımi şərait yoxdur. Bu səbəbdən tez-tez paytaxta getməli olurdum. Belə olduğu təqdirdə həm vaxt itkisi ilə üzləşirdim, həm də xəstəliyin müalicəsi gecikirdi. Buna görə də həyat yoldaşımla birlikdə qərara aldıq ki, dünya çempionatından sonra yenidən Avropaya qayıdaq. Artıq müalicələri Almaniyada davam etdiririk. Nəticələr də qənaətbəxşdir. Verdiyim qərara və itirdiyim pullara görə heyfslənmirəm. Mənim üçün əsas qızımın sağlamlığıdır”.


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.



E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19